Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

**İranla Azərbaycan arasında artan gərginlik fonunda İnqilab Keşikçiləri Korpusunun (SEPAH) tərəfdarlarının bir neçə sosial şəbəkə hesablarında Azərbaycanda "Hüseynçilər" müqavimət hərəkatının yaradıldığı elan edilib.**

# SEPAH-ın "Hüseynçilər layihəsi" Azərbaycandakı yenilməz tolerantlıq mühitində çilik-çilik olacaq...



Bu barədə "The Middle East Monitor" portalı yazır. Müəllif Ömər Əhməd qeyd edir ki, bu qruplaşma barədə ətraflı heç nə məlum deyil, hərçənd, onun 2019-cu ildə Suriya münaqişəsi zamanı formalaşdırıldığı deyilir: "Lakin hərəkat rəsmən bu günlərdə aktiv edilib. "Hüseynçilər", yaxud "Hüseyniyun" İslam Respublikasının Yaxın Şərqdəki "Müqavimət oxu" (Axis of Resistance) kimi bilinən digər müttəfiqlərinin bütün simvollarına - sarı və yaşıl rənglərin birləşməsinə, hücum silahı tutmuş ələ malikdir", - müəllif bildirir.

Məqalədə qeyd olunur ki, hadisələrin bu cür inkişafı təbii ehtiyatlarla zəngin ölkədə daxili təhlükəsizliyin və siyasi stabilliyin pozulması tendensiyasını başlada bilər. Baxmayaraq ki, Azərbaycan əhalisinin əksəriyyəti şiədir, amma uzun illərin sovet idarəçiliyindən sonra o hələ də əhəmiyyətli dərəcədə dünyəvi ölkə olaraq qalır.

**Sosial şəbəkədə dini məzhəb adı altında Azərbaycan dövlətçiliyinə qarşı çağırışlara rast gəlirik…**

Praqmatik nöqteyi-nəzərdən İran Azərbaycan millətçiliyini öz ərazisində böyük sayda azərbaycanlıların yaşamasına görə daxili işlərinə təhdid kimi dəyərləndirir. Bakı ilə əlaqələr saxlamaqla bərabər, İran Azərbaycanın qatı düşməni olan Ermənistana daha çox meylli hesab edilir. Məhz bu səbəbdən İran bilir ki, qonşularına münasibətdə ehtiyatlı davranmalıdır. İran artıq Türkiyə və Rusiyanın iştirakı ilə ötən ilin payızında Qarabağdakı müharibənin dayandırılması razılaşması baxımından ən çox uduzan tərəf kimi nəzərdən keçirilib. Bununla belə, İsrailin Azərbaycanla getdikcə artan yaxınlığı İranda narahatlıq yaradır, ötən həftənin əvvəli İran qəti şəkildə bildirdi ki, regionda hər hansı geosiyasi dəyişikliyə imkan verməyəcək.

İranın Azərbaycan sərhədləri yaxınlığında keçirdiyi hərbi təlimlərin hansısa eskalasiyaya gətirib çıxarması az ehtimal ediləndir. Amma İran, digər Yaxın Şərq ölkələrində olduğu kimi, dağıdıcı müxalif qrupları maliyyələşdirmək və ya "Müqavimət oxu" çətiri altında silahlı qrupları dəstəkləməyə yönəlmiş ardıcıl və effektiv siyasətinə üstünlük verə bilər.

Artıq bu istiqamətdə müəyyən təzahürlər nəzərə çarpmağa başlayıb. İran ölkəmiz daxilində müəyyən şəbəkəni hərəkətə gətirməyə cəhd edir. Sosial şəbəkədə dini məzhəb adı altında Azərbaycan dövlətçiliyinə qarşı çağırışlara rast gəlirik. İran etnik zəmində prosesləri qızışdıra bilmədiyindən məzhəb faktoruna keçib. İsrailə qarşı sionist kimi sözlərdən istifadə edilməsi isə ölkəmizə qarşı müəyyən bir şəbəkəni qızışdırır.

**44 günlük Vətən müharibəsində şanlı qələbəmizi də məhz bu birlik, bərabərliklə qazandıq**

Azərbaycan İslama bir milli-mənəvi dəyər kimi sahib çıxmağa, onu təhdidlərdən qorumağa, islam inancı haqqında qaranlıq düşüncələrin ortadan qalxmasına çalışır. Amma dövlət quruluşunun təməlində İslamın dayandığı, bayrağında İslam rəmzi olan yaşıl rəngin göz oxşadığı bəzi ölkələr, nədənsə, siyasi iddialarını dini əlahiddəlikdən yüksək tutaraq, Qurani-Kərimin ayələrinə belə zidd olaraq, haqlı olan bizi deyil, küfr edən kafirləri, işğalçılıq syasəti yürüdən düşmənlərimizi üstün tuturlar. Bu isə həm İslam qardaşlığına zidd mövqedr, həm də haqqı nahaqqın ayağına verməkdir. Həmin ölkələrin bəzi ali dini mənsubları və dövlət rəsmiləri atmacalı çıxışları ilə, onların emissarları isə ölkəmizin hüdudlarına nüfuz edərək dini icmalar arasında məqsədli təbliğat aparmaları ilə araya soyuqluq və nifaq toxumu səpirlər.

Azərbaycan demokratik, hüquqi, dünyəvi, unitar dövlətdir və dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Dinin dövlətdən ayrı olduğu ölkəmizdə bütün dini etiqadların qanun qarşısında bərabərliyi təmin edilir. Hüquqi bazası Konstitusiyamız ilə təsbit olunan bu dəyərlər ayrıseçkiliyin birmənalı şəkildə rədd edilməsini, xalqın birliyini şərtləndirən mühüm amillərdir və Azərbaycan bütün bu nüanslara görə dünyanın bir çox ölkəsinə nümunə göstərilə bilər.

Elə 30 ilə yaxın davam edən erməni işğalına son qoyulması, torpaqlarımızın azadlığı uğrunda başlanan 44 günlük Vətən müharibəsində şanlı Qələbəmizi də məhz bu birlik, bərabərliklə qazandıq. Milliyyətindən və dinindən asılı olmayaraq hamı Vətən üçün səfərbər oldu, bu gün hər biri bizim üçün müqəddəs olan şəhidlərimiz arasında ölkəmizdə yaşayan müxtəlif dinə etiqad edən müxtəlif millətlərin nümayəndələri var. Təsadüfi deyil ki, şəhidlərimizin anım günü təkcə məscidlərdə deyil, eyni zamanda, ölkənin digər dini məbədlərində - "Jen Mironosets" pravoslav kafedral kilsəsində, Avropa Aşkenazi Yəhudi Sinaqoqunda, Müqəddəs Bakirə Məryəm katolik kilsəsində qeyd edildi. Bu məbədlərdə dini ayinlər icra olundu, dualar oxundu. Bütün bunlar bir daha ölkəmizdəki tolerantlığı və hər bir vətəndaşımızın dövlətinə, xalqına sadiqliyini sübut edir. Bu baxımdan da, Azərbaycanda məzhəb ayrıseçkiliyi zəminində qarşıdurma yaratmaq cəhdləri heç bir nəticə verə bilməz, əksinə, çilik-çilik olacaq.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**